**Abdullayeva Şahnaz**

# OSKAR UAYLD YARADICILIĞINDA DEKADENTÇİLİK VƏ ESTETİZM "SARI KİTAB" SİMVOLU

Latınca "decadere" (həll, pozulma, zəifləmə) felindən törəyən və Fransızcada çürümə, əxlaqi çöküntü mənasına gələn "Decadence" anlayışı Monteskyö tərəfindən Antik Roma dövrünə aid mətnlər əsasında Romanın çöküş səbəblərini ortaya qoymaq üçün istifadə edilmişdir. Eyni zamanda XIX əsrin ortalarından etibarən Fransada da oxşar mədəni korlanmanı və həll meyllərinin ortaya çıxdığını vurğulamaq, çağdaş vəziyyətini ifadə etmək üçün dövrün müxtəlif qrupları tərəfindən istifadə edilməyə başlanmışdır. Müsbət mənada isə ilk dəfə Şarl Bodler tərəfindən, E.A. Podan etdiyi tərcümələrə yazdığı müqəddimədə Ponun və özünün şeirini səciyyələndirmək üçün işlədilir və tarixi prosesin əsas təbii inkişafı kimi dəyərləndirilir. "Dekadans ruhun çöküşüdür, insanın həyat, dünya, bəşər rifahı, xoş gələcəklə bağlı ideyalarının "inkisari-xəyalə" uğraması, insanın içində yaranan "son" problematikasıdır" (6.1).

Dekadentizm çox vaxt İntibah ənənəsininin çatdığı son mərhələ kimi də qəbul edilir. V. Hüqo, Balzak, Stendal, T.Manndan O. Uayld, Hyusmanns, Şnitzler və Rilkeyə qədər bir çox yazıçı bu mədəni prosesin içərisində yer alır. Bütün bu yazıçıların ortaq xüsusiyyəti hekayə, roman, dram və başqa əsərlərində kilsə və dövlət təsirindən xilas olmuş İntibah insanını müasir fərd olaraq təsvir etmələridir. Sözügedən obrazların ümumi xüsusiyyətləri adətən əsəbi, cisim və ruh baxımdan həddən artıq həssas, kövrək və xəstəhal olmalarıdır. Bu xəstəhallıq, içərisində yaşadıqları cəmiyyətlə və onun həqiqətlərinə uyğun bir həyat sürmələrini əngəl yaradır, həm də özlərinə gerçək dünyaya paralel olaraq fərqli bir süni dünya yaratmalarına yol açır. Fransız dekadentizminin özü ilə bərabər gətirdiyi yeniliklər, bütün Avropada əks-səda yaratmışdır. Dekadentizm sürrealizm, simolizm, kübizm və estetizm cərəyanlarını yaranmasına təkan verir.

Estetizmsənətlə, gözəlliklə maraqlanan fəlsəfi bir cərəyandır. XIX əsrin sonunda Fransada naturalizm cərəyanına qarşı ortaya çıxmış və obyektiv reallığı müşahidənin qarşısına subyektin təcrübəsini qoymuşdur. Estetizm gerçəkləşdirmək istədiyi gözəllik haqqında düşünmə sənətidir. Estetizm anlayışı gözəl olanı axtarmaq, duymaq anlamını daşıyır. Estetizm çox sadə intellektual intizam, sənətlə bağlı olan problemlərin heterogen bir kolleksiyasıdır.Onlar ədəbiyyatın intellektual, didaktik və tərbiyəvi əhəmiyyətini rədd edir, "sənət sənət üçündür" şüarı ilə çıxış edirdilər. Estetlərin fikrincə, təbiət və cəmiyyət incəsənətlə müqayisədə kobud və çiy materialdır; onu əsərlərdə əks etdirməyə dəyməz, ədəbiyyat və incəsənət əsərləri yalnız öz bədiliyi, obrazlılığı ilə gözəldir.

Estetizm cəriyanın əsas nümayəndəsi Oskar Uayld olmuşdur."İrland filosofu, yazıçısı, şairi, Viktoriya dövrünün sonlarının ən məhşur dramarurqlarından biri, London dendisi və bir–birinə zidd aforizmlərin müəllifi olan Oskar Uayld 1854-cü il 16 oktyabrda Dublində doğulub.Oskar 1895-1897-ci illərdə iyirmi beş ay həbsdə qalmışdır. Daha sonra 1898-ci ildə həbsdən çıxaraq vətəndən sürgün edilmiş və Fransaya köçmüşdür. Yazıçı 1900-cü ildə Parisdə vəfat etmiş və orada dəfn olunmuşdur" (Oskar Uayld həyatın mənasını gözəllikdə görmüş, bütün yaradıcılığı da bu ideologiyanın açılmasına həsr edilmişdir. "Belə bir fikir var ki, estetizm cərəyanı yazıçı Oskar Uayld üzərində məhkəmə işindən sonra tənəzzül etməyə başladı".Estetizm cərəyanı onun əsərlərindən ən çox "Dorian Greyin portreti" əsərində nəzərə çarpır. Bu əsər öz psixoloji təsiri ilə digər əsərlərindən fərqlənir.

Əsərin əsas obrazı - Dorian parlaq və soyuqqanlı bir gəncdir. Əsərdə rəssam Bezil Hollvard gənc və gözəl Dorianın portretini çəkir. Gənc öz portretinə aşiq olur və düşünür ki, qocalıb öz gözəlliyini itirsə də, portret hər zaman eyni yaşda və gözəl qalacaq. "Əksinə olsaydı, portret dəyişsəydi, mənsə hər zaman indiki kimi qala bilsəydim, bunun naminə ruhumu İblisə də satardım"deyir (1.45). Beləliklə, onun ricası eşidilir. Daha sonra Lord Henri, Doriana sarı üzlü kitab göndərir, Dorian bu kitabı oxuduqdan sonra uzun müddət təsirindən çıxa bilmir və Dorian özünü həmin kitabın baş qəhrəmanı ilə eyniləşdirir, onda fərqli estetik zövqlər yaradır.Mərhəmət-zülm, yaxşılıq-pis anlayışlarını itirir, insani keyfiyyətlərdən, bəşəri dəyərlərdən tamamilə uzaqlaşır. Bu əsərdə qeyd olunan "sarı kitab" Hyusmansın *dekadentizmin incili*(9.15.) hesab olunan "Tərsinə" romanıdır. Əsərdə Dorian özünə bənzətdiyi bu obrazın əsər boyu sərgilədiyi davranışları, həmin əsəri oxuduqdan sonra eyni ilə özü etməyə başlayır.

Joris Karl Hyusmansın 1884-cü ildə yazdığı "Tərsinə"romanın baş qəhrəmanı Des Essentesdir. Hyusmans Essentesi yazıçı, sənətçi, estetik, dendi kimi tanınan Robert de Monteskyödən və biraz da özündən təsirlənərək yaradır. "Tərsinə" adının anlamıəsəri oxuduqca özünü izah etmiş olur. Əsərin adının "Tərsinə" olması müəllifin dünyagörüşününhəm təbiətə qarşı olması, baş qəhrəmanını evə qapaması, həm də evində təbiəti əks etməsi ilə bağlılıq təşkil edir.Hyusmans və Oskar Uayldın gerçək həyatda dost olduqları məlum məsələ idi. Oskar Hyusmansın sözü gedən kitabı ilə Parisdəbal ayında olarkən tanış olur və onu oxuduğu "ən yaxşı roman" adlandırır. Əsərlərinin əksəriyyətində dərin təsiri görülənbu sarı üzlü kitab eyni zamanda "Dorian Qreyin portreti" romanının baş obrazını "zəhərləyən" kitabdır. O.Uayldın "Salom" pyesi də "Tərsinə"nin təsirindən yan ötməmişdir.

Des Essentes də Dorian Qrey kimi adlı-sanlı ailədən gəlir. "Tərsinə" romanının baş qəhrəmanın tam adı Jon Flores des Essentes Floreslər ailəsinə mənsubdur. Des Essentasesin ailəsinin keçmişi, təhsili, aldığı ev, bu evi almadan əvvəlki həyatı, özünün həddindən artıq bəzəkli və süni zövqünə görə döşədiyi evi romanda ətraflı təsvir edilmişdir. Valideynləri ona böyük miras qoyaraq həyatdan erkən köçürlər. Əvvəlcə dini məktəbdə oxuduğu tanışlarıyla, sonra isə kollecdə oxuyanlarla ünsiyyət qurur, qısa müddətdən sonra hər kəs onda ikrah hissi yaradır. Ardından özünü ruhən yaxın hiss etdiyi yazıçılarla yaxınlaşır. Bir müddət ünsiyyətdə olduqdan sonra onların kitabların dəyərini tiraj sayı, əldə olunan gəlirlə ölçmək kimi banal söhbətlərindən iyrənir. Bütün axtarışlarının ardından yorğun, üzülmüş, ölməyə belə gücü çatmayan qorxaq kimi tənhalığı xilas yolu görür. O böyüdüyü, lakin heç bir bağlılığı olmayan Lurp qəsrini tərk edir və Parisdən uzaqda kənd evi alır. Əsərdə onun dendi kimi yüksək zövqündən bəhs edilir. Öz fərqli stili ilə qürrələnən Essentes mənasızlığı anlayır, yeni evinin memarına evi tənhalığa uyğun hazırlamağı tapşırır. Divarların rənglərini xüsusi dəqiqliklə seçir. Evə iki qulluqçu işə götürür. Tamamilə tənha

olduğunu hiss etmək üçün qulluqçuları elə təlimatlandırır ki, gözə görünməz kimi davransınlar. O, həyatındakı hər şeyi dəqiqliklə planlaşdırır. Sonra istədiyi hər şeyi xəyallarının köməyi ilə yerindənbelə tərpənmədən reallaşdırmağa başlayır. Tənha evində istədiyi səyahətə çıxır. Hərəkət etməyin ağılsızlığını qəbul edir, öz düşüncələrində fantaziyalarla bayağı reallığı asanlıqla əvəz edə bilir. Bununla da, Şarl Bodlerin dediyi sözləri hərəkətləri ilə həyata keçirir. Qəhrəmanın fikrincə vacib olan diqqəti toplamaqdır, beləliklə, asanlıqla reallığı arzu olunan nəticə ilə, fantaziyalarla əvəz etmək olur. Essentes tənhalığa qapıldıqca keçmişin xatirələri ona təzyiq göstərir. O, tələbəliyini xatırlayır. İlahi sevgi barədə öyrəndiklərini düşünür, öz şüurunun alt qatlarına endikcə özündə müxtəlif xəstəlik simptomları hiss edir. Bununla da özünü xəstəliyə süni şəkildə təşviq edəcəyini düşünür. Evini bəzəmək üçün güllər aldıqda bir müddət bundan ləzzət alsa da, vaxt keçir güllərə baxdıqca Sifilisin obrazının onu izlədiyi kabuslar görür. Nevroz halı kəskinləşir. Qarabasmalar həddindən çox artır. Qeybdən musiqilər eşitməyə başlayır. Şüuru yerinə gələndə isə güzgüdəki əksinə baxıb öz halından qorxur. Parisdəki həkiminə təcili məktub yazaraq çağırır. Həyatda qalmaq üçün tələsir. Həkim gəlib özünü çatdırır. Həkim yaşayış yerini dəyişməsə, öləcəyini dedikdə isə qəhrəman təşvişə düşür. Essentes pessimsit sübutlarının ona təskinlik verməyəcəyini anlayır. Parisə qayıtmaq üçün yola hazırlaşan Essentes bu əyalət səfərinin onun üçün yaxşı qurtardığına şükür edərək xilas üçün Allaha dua edir.

Essentes Dorian Qrey arasında başlıca oxşarlıq hər ikisinin adlı-sanlı ailəyə mənsub olmağındadır.Romanda Lurps sarayında gizlədilən bir neçə portretə baxılarsa, bu ailənin qədim zamanlarda əsgərlərdən və zabitlərdən ibarət olduğunu görərik. “Güçlü omuzlarıyla kapattıkları eski çerçevelerinde iyice sıkışmış durumda, kımıltısız gözleri, yatağan biçimi bıyıkları, çıkıntısı zırhların kocaman kabuğunu dolduran göğüsleriyle insanı ürkütürlerdi."( 2., 32) Hər iki obraz valideyinlərini gənc yaşlarında itirmiş və onlara ailədən külli miqdarda miras qalmışdır.

Essentes obrazı ilə Dorian Qreyin başqa bənzərliyi onların hər ikisinin də yaşadığı, cəmiyyətin qanunlarına, əxlaq dəyərlərinə, üzvlərinətənqidi yanaşmaları və bütün bunlara qarşı hiss etdikləri diksinmə hissidir. Dorian Qreydəki dəyişikliklərin səbəbkarı olan Essentes ilə Dorianı birləşdirən hər ikisinin də nifrət etdiyi cəmiyyətdən intiqam almaq məqsədi ilə cəmiyyətə qarşı bir qatil obrazı yetişdirməyə çalışmalarıdır. Essentes qonşuluğunda yaşayan oğlanın əxlaqsızlıq yuvasına ayaq açmasına görə kafeyə kifayət qədər pul ödəyir. Məqsədi oğlanı heç vaxt görmədiyi həyata öyrəşdirmək idi. Hər şey planlaşdırdığı kimi yolunda getsə, oğlan bu əyləncələri davam etdirmək üçün oğurluq, quldurluq edəcək, sonda isə qatilə çevriləcəkdir. Bunu planlaşıdrmaqdan Essentes həzz alır. Bənzər hadisə Dorianın xarekterində də görürk. Dorianın etdikləri bu iblisanə hərəkətlər dostu Bazillə mübahisəsində aydınlaşır. O, ətrafındakı gənclərin tərbiyəsini pozur, özü kimi hedonist obrazlar yaratmağa çalışır və bundan həzz alırdı. O, Kentin oğlunu əxlaqsızla evlənməyə sövq edir, Adrian Sinqleton adlı oğlanın saxta sənədlər hazırlamasına səbəb olur. Bervik isə onu görəndə yolunu dəyişir, çünki, bütün günahlarının səbəbkarından qaçır, səhvlərinin üzünə vurulmağından qorxur. “ Siz onların beyinlərini ehtiras, şəhvət ləzzətləri ilə doldurmuşsuz. Onlar uçuruma yuvarlanmışlar. Onları siz sürükləmisiniz oraya!” (1.180)

Essentes ilə Dorian arasında digər bənzərlik hər ikisinin katolik kilsəsinə meyilli olmasıdır. Lakin onların bu kilsəyə meyillik üçün məqsədləri fərqlidir.Des Essentes cəmiyyətə qarşı çıxır və buna görə də hermit (münzəvi) həyatı yaşayır. Essentes dünyadakı səmimiyyətsizlik və ikiyüzlülüyü aşmaq üçün özünü bu cəmiyyətdən ayırır. Essenteskatolisizm ideyasını qəbul etmək istəyir. Katolik dünyəvilik həyatını məhv etmək və bir insanın həyatını daha yaxşı, daha dürüst bir məqsədə yönəltmək idealını təlqin edir. Katolisizm həyatı absurd, məqsədsiz bir cəmiyyətə qarşı əks mövqedə dayanır. Essenteskilsəni həqiqətən aydın, bəxtsiz bir ana kimi, məzlumlara mərhəmətli, zülm edənləri və despotları təhdid edən məhfum kimi görür. Essentes katolik kilsəsinə bağlı olsa da, katolikliyi qəbul etməsinə mane olan iki problemə sahibdir. Birincisi, kilsəni təmsil etmək istəyən ruhanilərin fırıldaqçılıq və gülünclüyünü görür. Yəni, dünyadakı vəziyyətə baxarkən tam xeyriyyəçi tanrını qəbul etməkçətindir. Essentesiman tapmaqda çətinlik çəkir, Yer üzündə həyat həqiqətən kədər yatağıdır! Deyən Şopenhauerin fikirlərində həqiqəti görür!” ( 2.128 ).Sonda cəmiyyətə geri dönməyə məcbur qalan Essentesinsanların iyrəncliyi ilə başa çıxmaq üçün bir yol tapmağa çalışır və bu səbəblə katolikliyə üz tutmaqdan başqa bir çarə tapmır. XVI fəslin sonunda “Nəhayət pessimizmin özünə rahatlıq verə bilməyəcəyini, ancaq gələcəkdəki bir həyatda imkansız inancının özünə dinclik verə biləcəyini anladı" (2. 218). Dorian isə təmamilə başqa məqsədlə katolik kilsəsinə meyil edir. Onda estetizmin xüsusiyyətləri, gözəllik eşqi və şeytani hisslər katolikliyə həvəs yaradır. “İbadətə aid olan gündəlik qurban qədim dünyanın qurbanlarına baxanda daha real görünürdü;bunlar onu həyacana gətirirdi” ( 2.159) O, kilsəyə hər dəfə gəldiyində kilsənin soyuq mərmər döşəməsinə diz çökür, keşişin hərəkətlərini diqqətlə izləyir, onun daş-qaşlarla dolu qutunu açmağına, bu daş-qaşlara seyr etməyə maraq göstərirdi. Ancaq o, bu ehkamlara uymur, başa düşürdüki o, bu ehkamlarıqəbul etsə, əqli inkişafina zərər yetirər. Dorian da Essentes kimi Tanrının varoluşuna inanmır, cəmiyyət problemlərindən qaçaraq buraya gəlir, insanların günah çıxarmalarını izləyir.

İstər Oskarın, istərsə də Hyusmans bu əsərində estetizm güçlü şəkildə əks olunmuşdur. Hər iki obraz rəsm əsərləri, gözəl zinət aşyaları, qiymətli daş-qaşların həvəskarıdır. Dorianın dendiliyini də bu qiymətli daş-qaşlara meyilli olmağından, gözəl nə varsa ona üstünlük verməyindən anlayırıq. Dorian bu qiymətli əşyaları dünyanın dörd bir yanından gətizdirir və özü üçün kolleksiya toplayır. “ Bir müddət keçəndən sonra Dorianda yeni bir həvəs oyandı. O, qiymətli daş-qaş azarına tutuldu. Şəhərdə təşkil olunmuş bal maskaradların birində o, Fransız admiralı Anna de Joyes kimi kostyum geyindi; onun kamzoluna beş yüz altmış ədəd mirvari dənəsi tikilmişdir. Onun bu azarı uzun illər davam etdi və demək olarki, heç vaxt onu tərk etmədi” (1.162)Oskar bu əsərdə daş qaşlardan danışarkən onların hardan və necə tapılması qaydalarını, təbii daş-qaşların üstün cəhətlərinini dəqiqliklə qeyd etmişdir.

Essentesdə qiymətli daşlara olan marağı onun ev heyvanı tısbağa üzərində düzdürdüyü daş-qaşlardan anlaşılır. Hələ Parisdə yaşadığı zamanlar bir gün xalçanın rənglərinə baxarkən tünd rəngli nəsə yerdə hərəkət edərsə, bunun yaxşı görünə biləcəyini düşünür. Buna görəbir tısbağaalır. O, tısbağanı alanda xalçaya uyğun olmadığını, xalçanın

daha əlvan olduğunu anlayır və tısbağaya əlvan görünüş vermək istəyir, qiymətli daşlarla tısbağanın zirehini bəzəmək qərarına gəlir.O, ustaya daş-qaşlardan çiçək, gül və tac yarpaqlar düzəldib tısbağanın çanağına yerləşdirməyini tələb edir "Essentesindi yemək otağında bir küncdə büzülmüş, yarı qaranlıqda parıldayan tısbağaya baxmaqdadır. Tam anlamıyla xoşbəxt idi Essentes"( 2.71) Hər iki əsərdə ətirlərin qarışdırılaraq yeni bir ətir yaratma sənətinin ruhu (psixikanı) yaxşılaşdıra biləcəyi fikrinə rast gəlinir. "Dorian Qreyin portreti" əsərinin XI fəslində Uayld Fin de Seslin dekadent estetizminin fərqli və gizli təsvirinə əsaslanır. Əsərin qəhrəmanı ətirləri qarışdıraraq onlardakı qoxu hissini ədəbiyyatla, real həyatla əlaqələndirir və onlarda psixoloji vəziyyət yaradır. Hər bir ətrin insan psixikası ilə necə əlaqəli olduğunu ifadə edir. "Belə bir qənaətə gəldi ki, insanın hər hansı bir iç əhvali-ruhiyyəsi hansısa hissi qavrayışlarla bağlıdır və Dorian onlar arasındaki əsl əlaqələri özü üçün aşkar etdi." (1.161)

Essentesində qoxu hissiyatı güclənməyə başladığı və psixoloji vəziyyətinin gərginləşdiyi bir zamanda ətirlərə olan meyli artır. O, ətirlər olan otaqda öz bayağı ətirlərini yaratmağa başlayır. Onun bu həvəsi ətirlərdəki bayağılıq, təbiətə qarşı olması, təbii güllərin adı ilə adlansa da onların ətirləri ilə eyni qoxunu verməməsindən qaynaqlanırdı. Essentes də Dorian kimi ətirlərdəki sənəti, psixoloji xüsusiyyətləri göz önünə gətirir və hər bir ətrin xüsusiyyətini aydınlaşdırır, tarixi şəxsiyyətlərlə əlaqələndirir. "Bunun için, önce kokuların dilbilgisi üzərində çalışması, kokuların sözdizimini anlaması, onları yöneten kuralları iyice sindirmesi ve, bir kez bu ağızla iyice içli dışlı olduktan sonra, ustaların, Atkinson ve Lubin, Chardin ve Violetin yapıtlarını karşılatıтıp tümcelerinin yapısını öğelerinə ayırması, sözcüklerinin oranını və dölgülerinin düzenini tartması gerekmişti" (2. 129)

Hər iki obrazın estetizmi onların rəsm əsərlərinə olan maraqlarında da hiss olunur. Dorian Qrey öz qonaq otağında portretlərlə zəngin bir guşə yaratmışdır. Bu portretlərin arasında anasının portreti də yer almaqdadır. O, anasına baxaraq onun necə gözəl bir qadın olduğunu və öz gözəlliyini anasından aldığı qənaətinə gəlir. Essentesdə portretlərlə zəngin bir guşə yaratmış və təbiət təsvirlərinə bu portretlər sayəsində baxır, təbiətin gözəlliyini çölə çıxmadan xəyal edirdi. Həmin təsvirlər daş-qaşlarla bəzəldilmiş əsərlər idi. Essentesin Fransadakı qəsrində olan portretlər Dorianın evindəki portretləri xatırladır. Hər iki əsərdəki portretlər qohumluq, nəsil şəcərəsini əks etdirir. Dorian portretlərə baxır, yalnız öz nəslinin əcdadlarına mənsub olmadığını hiss edir.Ədəbiyyatda var olan, öz xəyali aləmini əks etdirən ədəbi obrazların onun əcdadı olduğu qənaətinə gəlir. Essentes də bu obrazlardan biri idi. O bu obrazı özünə yaxın his sedir və onun əcdadı olduğunu düşünür.

Beləliklə, Oskar Uayldın "Dorian Qreyin portreti" romanında tez-tez bəhs etdiyi sarı kitabın simvolikası çözülmüş olur. Yazıçı əslində sarı kitab dedikdə, məhz J.K.Hyusmansın "Tərsinə" əsərini nəzərdə tuturdu. Dünya ədəbiyyatı tarixində "sarı 90-lar"kimi tanınan dekadentizm dövrünün bütün mahiyyətini və prinsiplərini özündə ehtiva edən bu əsər Oskar Uayldın romanında estetizm konsepsiyasının, eləcə də dekadent əhval ruhiyyənin oxucu tərəfindən anlaşılmasına kömək edir.

**Ədəbiyyat**


1. HyusmansJ.K. Tersine. İstanbul, Yapı kredi yayınları, 2018, 219s
2. Uayld O.Seçilmiş əsərləri.Bakı,Şərq-Qərb,2013,464 s.
3. Yeni Türk Edebiyatı Araştırmaları, y. 3, S. 5, Oı:ak-Haziran 2011. s. 85-9
4. Aygün Qurbanlıhttp://kultura.az/news/20140811091042551
5.http://www.anl.az/down/meqale/edebiyyat/
6. **Elxan Nəcəfov**http://senet.az/
7.Elnarə Akimovahttp://senet.az/dekadentizim-anlayisi
8..Ceylan Bilgili , http://www.egitisim.gen.tr/site/arsiv/71-
9.Gülenay Börekçi http://www.haberturk.com/yazarlar/gulenay-borekci/
10.Günel İmranƏdəbiyyat qəzeti. 2017. 21 oktyabr.- S.15.
11.https://edebiyatvesanatakademisi.com/
12.http://www.gutenberg.org/ebooks/56149
13.https://wildedecadents.wordpress.com/


**Açar sözlər: Oskar Uayld, dekadentizm, estetizm, sarı kitab, Joris Karl Hyusmans**


**Резюме**

В статье анализируются принципы художественного отражения декадентизма и эстетики в романе Оскара Уайльда «Портрет Дориана Грея», одного из самых ярких писателей мировой литературы. Здесь говорится о сущности желтой книги, которая влияет на формирование главного героя Дориана в соответствии с идеей и целью автора. Отмечается, что желтая книга, упомянутая в произведении О. Уайльда, - это роман Жоржа Карла Хьюсмана "Наоборот", одного из самых ярких лиц декадентской литературы, и широко анализируются сходные черты обоих романов.


**Ключевые слова:** ***Оскар Уайльд, декадентизма, эстетики, желтая книга, Жоржа Карла Хьюсмана***


**Summary**

The article analyzes the principles of artistic reflection of decadentism and aestheticism in the novel by Oscar Wilde "Portrait of Dorian Gray", one of the most brilliant writers of world literature. It talks about the essence of the yellow book, which affects the formation of the main character Dorian in accordance with the idea and purpose of the author. It is noted that the yellow book, mentioned in the work of O. Wilde, is the novel by Joris Karl Huysmans "Against the Grain", one of the brightest representatives of decadent literature, and similar features of both novels are widely analyzed.


***Keywords:****Oscar Wilde, decadentism, aestheticism, yellow book, Joris Karl Huysmans*

***RƏYÇİ: dos.S.Abbasova***